

**Nəriman HƏSƏNZADƏ**

*Xalq şairi*

Yazıçılar Birliyinin bugünkü yığıncağında Xalq yazıçısı Anar müəllimin Prezidentimiz Ali Baş Komandan İlham Əliyevin Yazıçılar Birliyinin Fəxri üzvü seçilməsi barədə təklifini ürəkdən alqışlayıram. Ana südü kimi halaldı. Bu günlərdə 60 yaşı tamam olur. İnanıram ki, bu, ümumxalq bayramına çevriləcək. Qalib sərkərdə kimi cənab Ali Baş Komandan tariximizi şərəfləndirdi, millətin başını ucaltdı, bizim daxilimizdə elə bir milli qürur hissi yaratdı ki, artıq azərbaycanlı olmağımızla nəinki fəxr edirik, başqa xalqlara nümunə olmaq nüfuzuna malikik.



Mən unudulmaz ulu öndərin zamanında da, ərazilərimizin işğaldan azad olunandan sonrakı vaxtda da Şuşada Vaqif Poeziya günlərinin iştirakçısı olmuşam. Demək istəyirəm ki, İlham Əliyev həmişə bizimlə bir yerdə olub, bizim yaşlı nəslin gözümüzün qabağında böyüyüb. O doğmadı, əzizdi. Əsrin yetişdirdiyi qalib Sərkərdədir.

**Cənab Ali Baş Komandan halaldı Sizə, millət, vətən qarşısında oğul haqqınız.**

**44 günü Siz yazdınız tariximizə, günəş kimi, dünyaya da doğacaqsınız.**

***20 dekabr 2021***

**Ədəbiyyat qəzeti.- 25 dekabr.- 2021- ci il.- S. 6.**